# Biləsuvar Muğanın gözəl diyarına çevrilir

❒ ***Cənub bölgəsinə səmt alan yolçular magistralın 153-cü kilometrində qərar tutan Biləsuvar şəhərinin yanından etinasız ötə bilmirlər. Buradan görünən səliqə-sahmanlı küçələr, yaraşıqlı binalar istər-istəməz diqqət çəkir. Biləsuvar rayonu son illərdə həyata keçirilən quruculuq tədbirləri sayəsində xeyli abad və gözəl diyara çevrilib.***

Ötən il rayon üzrə qaramal 41,3 min baş, davar isə 139 min baş təşkil edib. Ümumi məhsul buraxılışının həcmi 233,6 milyon manat olub ki, bu da əvvəlki illə müqayisədə 8,7 faiz çoxdur.

Azərbaycan Prezidenti İlham Əliyevin "Biləsuvar

uğurlar qazanılıb. Artıq ən müasir tibbi avadanlıqlarla təchiz olunmuş rayonun Mərkəzi Xəstəxanasında dializ şöbəsi də fəaliyyət göstərir. Rayonda dövlətimizin gənclər və idman siyasəsətinin həyata keçirilməsindən ötrü bir sıra işlər görülüb.





Ötən ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağında Biləsuvarın uğur salnaməsi, burada yaşayan əhalinin həyat şəraitinin get-gedə yaxşılaşması konkret faktlarla təsdiqlənib, rayonda sosial yönümlü layihələrin bundan sonra da səylə icra olunacağı vurğulanıb.

Yığıncaqda məruzə ilə çıxış edən icra hakimiyyətinin başçısı Mahir Quliyev bildirib ki, 2016-cı il sentyabrın 3-də rayona səfər edən Prezident İlham Əliyevin burada görülən işlərlə tanış olması, əsaslı təmir və yenidənqurmadan sonra Mərkəzi Xəstəxananın və 10 min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən, 6 kilometrlik Əsgərabad-Muğan-Çaylı avtomobil yolunun açılışlarında iştirakı mühüm tarixi hadisələr kimi yadda qalmışdır.

Keçən il bir sıra bölgədə olduğu kimi, Biləsuvarda da pambıqçılığın inkişafı üzrə ciddi addımlar atılması xüsusi qeyd edilməlidir. Bununla bağlı rayonda kompleks tədbirlər həyata keçirilib. Rayonda 2015-ci ildə 6362 ton pambıq yığıldığı halda, 2016-cı ildə "ağ qızıl" tarlalarından 12062 ton məhsul toplanıb. Bu müddət ərzində 12 min nəfər işlə təmin olunmuş və pambıq tədarükündən ailə üzvlərinin sayı 4 min nəfərə yaxın olmaqla 800 nəfər mülkiyyətçi 2,4 milyon manat gəlir əldə edib. İstehsal olunan pambığa görə mülkiyyətçilərə 1,2 milyon manat həcmində subsidiya veriləcəyi də nəzərə alınsa, sahənin inkişafının necə sərfəli olduğu aşkar görünər. Bu il rayonda 10500 hektar sahədə pambıq əkininin aparılması üçün hazırlıq işlərinə başlanıb və sahələrdə indiyədək 8 min hektardan çox şum vurulub.

Nazirlər Kabinetinin iclasında dövlət başçısının səmərəsiz qalan on min hektarlarla örüş torpaqlarından istifadə olunması ilə bağlı tapşırıq və tövsiyələrinə uyğun olaraq Biləsuvarda da əməli işlərə başlanıb. Dövlət Fonduna aid 5 ayrı-ayrı massivdə yerləşən, ümumi sahəsi 17136 hektar əkinə yararlı qış otlaq sahəsinin təyinatının dəyişdirilərək kənd təsərrüfatı üzrə əkin dövriyyəsinə cəlb edilməsi və ərazinin suvarılması, torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün kollektorlar qazılır. İlkin mərhələdə iki aqropark yaradılacaq. Ərazilərdə taxıl və pambıqla yanaşı, digər bitkilər də yetişdiriləcək.

şəhərində çoxmənzilli binaların əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" imzaladığı sərəncama uyğun olaraq, hazırda aztəminatlı ailələrin yaşadığı binalarda təmir işləri aparılır. Hesabat dövründə rayon elektrik şəbəkəsinin, Kənd Təsərrüfatı Nazirliyinin və Dövlət Sosial Müdafiə Fondunun Biləsuvar rayon şöbələrinin inzibati binaları, Səmədabad kəndində Heydər Əliyev parkı tikilib, Əsgərabad kəndində 480 yerlik tam orta məktəb əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. Biləsuvar şəhərinin 7 küçəsində və Ələt-Astara magistral avtomobil yolunun Bəydili kəndi ərazisindən keçən hissəsində, ümumilikdə 9 kilometrədək məsafədə asfalt-beton örtüklü yol tikilib.

Əhalinin elektrik enerjisi və təbii qazla dolğun təmin edilməsi məqsədilə ərazilərdə müxtəlif kilovoltluq 31 ədəd yeni elektrik transformatoru qoyulub, 21 transformator təmir edilib, 733 ədəd metal və 1721 ədəd beton elektrik dirəyi quraşdırılıb. Rayonun bütün yaşayış məntəqələri 100 faiz təbii qazla təmin olunub.

Məruzəçi qeyd edib ki, ötən il təhsil, səhiyyə və mədəniyyət sahələrində də

Biləsuvarda vətəndaş müraciətlərinə baxılması yüksək səviyyədə təşkil olunmuşdur. Elektron hökumət portalında vətəndaşların elektron formada qəbul imkanı təmin edilmişdir. Rayon icra hakimiyyətində Apellyasiya Şurası və katibliyi yaradılmışdır. Ötən il yerlərdə keçirilmiş səyyar qəbul-görüşlərdə 4659 nəfər iştirak etmiş, qaldırılan məsələlərin 91 faizi həll edilmiş, digərlərin həlli üzrə müvafiq addımlar atılmışdır.

Mahir Quliyev məruzəsinin sonunda bildirib ki, rayonda abadlıq, quruculuq işlərinin bundan sonra da davam etdirilməsi, sosial infrastrukturunun yenilənməsi, kənd təsərrüfatının inkişafı, əhalinin məşğulluğunun təmin edilməsi əsas prioritet sayılacaq.

Hesabat yığıncağında Milli Məclisin deputatı Xanhüseyn Kazımlı və Prezident Administrasiyasının məsul işçisi Habil Əzənmədov da çıxış edərək qazanılan nailiyyətləri təqdir edib, ölkəmizin inkişafı ilə bağlı qarşıda duran hədəfləri açıqlayıblar.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***